# Azərbaycan-Rusiya münasibətləri yüksələn xətt üzrə inkişaf edir



**Azərbaycan-Rusiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində hazırda strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Xatırladaq ki, Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə bir müddət bundan əvvəl "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında iştirak etməsi Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin göstəricisi kimi böyük rezonans doğurdu. Müasir dünyanın ən aktual məsələlərinin müzakirə edildiyi həmin sessiyadan əvvəl prezidentlər İlham Əliyevin və Vladimir Putinin görüşündə əsas müzakirə mövzusu iki dövlət arasında əməkdaşlığın bundan sonra da genişləndirilməsi oldu. Ümumiyyətlə, son illərdə xüsusilə aydın müşahidə olunur ki, Rusiya Cənubi Qafqaz regionunda yeganə siyasi və iqtisadi güc kimi məhz Azərbaycanı görür.**

Azərbaycan-Rusiya əlaqələrinin hazırkı yüksək inkişaf səviyyəsini digər amillərlə yanaşı, həm də iki ölkə liderlərinin yaxın dostluq münasibətləri şərtləndirir. Bunu Prezident İlham Əliyev Vladimir Putinlə yuxarıda qeyd edilən görüşündə də ayrıca olaraq vurğuladı. Bildirdi ki, Rusiya Prezidenti ilə intensiv görüşür. Hətta görüşlərə bir neçə ay ara verdikdə, bu, böyük fasilə hesab olunur. Həm Azərbaycan, həm də Rusiya tərəfi münasibətləri strateji xarakterli hesab edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlər də iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini aydın göstərdi. Mehriban xanım Əliyevanın Moskvada Rusiya Prezidenti Vladimir Putin, Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşləri də Azərbaycan-Rusiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi diqqət yetirilməsinin parlaq ifadəsinə çevrildi.

Burada mühüm bir məqamı da qeyd etmək istərdik. Rusiya Prezidenti tərəfindən Mehriban xanım Əliyevanın iki ölkə arasında münasibətlərin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif olunması Azərbaycanın Birinci vitse-prezidentinin bu sahədə səmərəli fəaliyyətinin bariz ifadəsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Rusiya Federasiyasında rəsmi səfərdə olarkən, bu ölkənin rəsmi şəxsləri ilə görüşlərində ikitərəfli münasibətlər barədə ətraflı danışılıb. Bildirilib ki, Azərbaycan Rusiya ilə qarşılıqlı əməkdaşlığa müstəsna dərəcədə böyük əhəmiyyət verir. Ölkələrimizi qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin hər iki tərəfin birgə səyi sayəsində hazırda münasibətlər strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Azərbaycan və Rusiya dövlət başçılarının mütəmadi olaraq keçirdikləri görüşlərdə fəal siyasi dialoq özünü qabarıq büruzə verir. Bu görüşlər, demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafını sürətləndirir.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Kosmos" binasında X Azərbaycan-Rusiya Regionlararası Forumundakı çıxışında deyib: "Hazırda Azərbaycanla Rusiya arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Ötən il isə 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb. Bu proqram sənədi özündə 5 "yol xəritəsi"ni ehtiva edir. Onlar ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılmasına, nəqliyyat potensialının inkişafına, birgə müəssisələrin yaradılmasına, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsinə, həmçinin humanitar əlaqələrə istiqamətlənib. Son illər Rusiya və Azərbaycan arasında iqtisadi-ticari əlaqələrin dərinləşdirilməsi üzrə çox böyük iş görülüb. Biz artıq onun praktik nəticələrini görürük".

Səfər çərçivəsində keçirilən X Azərbaycan-Rusiya Regionlararası Forumundakı çıxışında Mehriban Əliyeva da Azərbaycan-Rusiya əlaqələrinin hazırkı yüksək inkişaf səviyyəsinindən danışaraq bildirib ki, regionlararası əməkdaşlıq ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə iqtisadi əlaqə saxlayır. Regionlararası forumların keçirilməsi yaxşı bir ənənəyə çevrilib və regionlararası əlaqələrin genişlənməsi işində mühüm rol oynayır. Keçən ilin sentyabrında Bakıda bundan əvvəlki forumun açılışında iki dövlətin başçılarının iştirakı regionlararası əməkdaşlığa ali səviyyədə əhəmiyyət verilməsinə dəlalət edir: "Budəfəki forum çərçivəsində rəqəmsallaşma, kənd təsərrüfatı, turizm sahələrində, humanitar sahədə ikitərəfli qarşılıqlı fəaliyyətin perspektivləri ətraflı müzakirə edilib. Ümidvaram ki, əvvəlki illərdə olduğu kimi, bu forumun da nəticələri bizim ikitərəfli münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verəcək".

Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində keçirdiyi görüşlərdə iki ölkə arasında ticarətdə müsbət dinamika müşahidə edildiyi, 2018-ci ildə ticarət dövriyyəsinin 19 faiz artaraq

> ***Rusiya Federasiyası ilə münasibətlər Azərbaycanın xarici siyasətində çox mühüm yer tutur. Bütün istiqamətlər üzrə müsbət dinamika müşahidə edilir. Dövlətlər səviyyəsində müntəzəm siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. İqtisadi əməkdaşlıq artıq öz bəhrələrini verir və bu, çox sevindirici haldır.***
>
> **Mehriban ƏLİYEVA**
> **Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

2,6 milyard ABŞ dollarına çatdığı, cari ilin 9 ayı ərzində isə artımın 26 faizə yüksəldiyi vurğulanıb. Eyni zamanda, investisiya sahəsində də əməkdaşlığın genişləndiyi, Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın müəssisənin qeydə alındığı, Azərbaycanda Rusiya investisiyalarının həcminin 4,9 milyard ABŞ dollarına çatdığı, respublikamızın bu ölkəyə 1,2 milyard dollar sərmayə yatırdığı bildirilib.

Yuxarıda sadalanan uğurlarla bərabər, hazırda maşınqayırma və avadanlıq istehsalı, kimya sənayesi, əczaçılıq, nəqliyyat kimi sahələrdə müştərək layihələrin reallaşdırıldığı, "SOCAR Polymer" zavodunun inşa edildiyi, "Azərikimya" müəssisələrinin modernləşdirildiyi, Gəncə avtomobil müəssisəsində "KamAz" Səhmdar Cəmiyyətinin və "Ural" avtomobil zavodunun yük avtomobillərinin istehsalı və yığılmasının həyata keçirildiyi, Hacıqabul Sənaye Məhəlləsində "QAZ" markalı avtomobillərin yığılması üzrə zavodun tikildiyi, "P-farm" əczaçılıq preparatları müəssisəsinin birinci növbəsinin inşasının başa çatmaq üzrə olduğu, habelə, elektrik enerjisi mübadiləsinin uğurla gerçəkləşdirildiyi, Azərbaycan, Rusiya və İran arasında Şimal-Cənub enerji dəhlizinin qurulması istiqamətində tədbirlər görüldüyü xatırladılıb.

Ölkələrimizin bir-birinə bağlanmasında humanitar əlaqələr də xüsusi rol oynayır. Azərbaycanda Rusiya mədəniyyətinə, rus dilinə dərin hörmətlə yanaşılır. Respublikamızda rus dilinin öyrənilməsi tam həcmdə qorunub saxlanılıb. Hazırda 338 məktəbdə tədris rus dilində aparılır, Azərbaycanın 14 dövlət ali məktəbində rusdilli bölmə var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi üzrə pilot layihəsi həyata keçirilir. Ali təhsil səviyyəsində də uğurlu əməkdaşlıq mövcuddur. Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə icrasına başlanıb. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır.

Mədəniyyət sahəsində daimi dialoq həyata keçirilir, mütəmadi olaraq sərgilər, teatr qastrolları, konsertlər, musiqi və kino festivalları təşkil olunur. Artıq 25 ildir ki, irimiqyaslı mədəniyyət günləri layihəsi həyata keçirilir.

Turizmin inkişafında da müsbət dinamika nəzərə çarpır. Rusiyadan ölkəmizə səyahət edən turistlərin sayı getdikcə artır. Ötən il 900 min rusiyalı Azərbaycanda olub. Cari ildə həmin göstəricinin daha da yüksələcəyi gözlənilir.

Məhz elə yuxarıda qeyd edilənlərin məntiqi nəticəsidir ki, hazırda Azərbaycanın mühüm tərəfdaşı olan Rusiya ilə əlaqələri yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlığı yeni inkişaf mərhələsindədir. Qarşılıqlı siyasi, sosial-iqtisadi münasibətlər iki ölkənin birgə səyi ilə mühüm tədbirlərin, önəmli layihələrin uğurla reallaşdırılmasına əlverişli imkan yaradır və yüksək göstəricilər əldə edilir.

*V.BAYRAMOV,*
*"Xalq qəzeti"*